

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

11 dekabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 48 (3760)


# Əməkdaşlıqda yeni səhifə açılır

**Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri iki ölkə arasında münasibətlər tarixində xüsusi mərhələ kimi qiymətləndirilir. Dövlət başçısının Slovakiyanın dövlət başçısı tərəfindən “Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik” sözləri ilə qarşılanması bu səfərin dostluq münasibətlərini daha da möhkəmləndirdiyini göstərdi.**



Bu, Slovakiyanın tarixində Azərbaycan Prezidentinin bu ölkəyə ilk rəsmi səfəri idi. İllər ərzində Azərbaycan ilə Slovakiya arasında siyasi, iqtisadi və humanitar sahələrdə davamlı dialoq formalaşıb, qarşılıqlı səfərlər artıb. COP29 zamanı Slovakiyanın yüksək səviyyədə təmsil olunması da bu münasibətlərə verilən önəmin göstəricisidir. Bu dəfə Prezident İlham Əliyevin geniştərkibli nümayəndə heyəti ilə Bratislavaya səfəri də tərəflərin əlaqələri möhkəmləndirmək niyyətinin bariz nümunəsi kimi qəbul edilib.

> *Bizim ölkələrimiz dost ölkələrdir…*

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinidinin mətbuata bəyanatında səsləndirdiyi “Bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub” fikirləri Bratislava görüşünün mahiyyətini əks etdirir.

Slovakiya Azərbaycana yerləşdiyi regionda strateji tərəfdaş kimi yanaşır və ölkəmizin iqtisadi potensialını yüksək qiymətləndirir. Azərbaycan Şərq ilə Qərb arasında coğrafi mövqeyi, eləcə də zəngin enerji bazası ilə Avropa üçün önəmli tərəfdaş kimi tanınır.

Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması münasibətlərin yeni mərhələyə daxil olduğunu təsdiqləyib. Slovakiyanın Ağdam rayonunun Baş Qərvənd kəndində “ağıllı kənd” layihəsində iştirakı bu əməkdaşlığın real nəticələrindən biridir.

## Prezidentin Slovakiyaya rəsmi səfəri əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldir

Bratislavada mətbuata bəyanatında Prezident İlham Əliyev enerji əməkdaşlığının yüksələn xətt üzrə inkişaf etdiyini bildirib: “Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər.”

Hazırda Azərbaycanın ümumi qaz ixracı ildə 25 milyard kubmetri keçib və bunun yarısı Avropaya nəql olunur. Avropa İttifaqına üzv səkkiz ölkənin Azərbaycan qazı ilə enerji təhlükəsizliyini təmin etməsi bu sahənin regional əhəmiyyətini daha da artırır.

> *Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilib*

Slovakiya üçün Azərbaycandan qaz ixracı xüsusilə önəmli hesab edilir. Prezident Peter Pelleqrininin də vurğuladığı kimi, Avropa bazarında enerji təchizatının şaxələndirilməsi Slovakiya üçün strateji məsələdir və Azərbaycan bu prosesin əsas tərəfdaşlarından biri kimi görülür.

Strateji müttəfiqlik enerji ilə məhdudlaşmır. Orta dəhliz, əlaqələrin yeni nəqliyyat imkanları, informasiya texnologiyaları və data mərkəzləri sahəsində əməkdaşlıq genişlənir. Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycanın yüksək enerji potensialı, müasir infrastruktur və əlverişli iqlim şəraiti beynəlxalq texnologiya layihələrinin reallaşması üçün ölkəmizi əlverişli məkan edir.

Slovakiya Prezidenti də ikitərəfli əməkdaşlığın perspektivlərini yüksək qiymətləndirərək müdafiə sənayesi, texnologiya ötürülməsi, birgə istehsal, maliyyələşdirmə və digər sahələrdə əməkdaşlığın dərinləşəcəyini qeyd edib.

# Dəhliz geostrateji qələbədir

## Azərbaycan regionda və dünyada yeni reallıqlar yaradır

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi Zəfərə imza atıb, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərdə bərqərar olub.**




Bütün bu qalibiyyət ilə Azərbaycan dünyada yeni reallıqların müəllifi kimi tanınır.

Bu isə Azərbaycanı yeni uğurlara hədəfləyir. Uğurlar sırasında Zəngəzur dəhlizinin açılması ilə bağlı razılıq xüsusi önəm daşıyır. Zəngəzur dəhlizi Çindən başlayaraq Mərkəzi Asiyanı Xəzər regionu, Azərbaycan, Ermənistan, Azərbaycanın dilbər guşəsi Naxçıvandan Türkiyəyə keçməklə Avropa ilə birləşdirən sosial-iqtisadi, geosiyasi və geostrateji xüsusiyyətlərə malik geniş marşruta çevriləcək. Bu dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionları bir-biri ilə birləşdirəcək. Dəhliz Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq, Orta Asiya dövlətlərini və Azərbaycanı uzun illərdən sonra quru yolla strateji və iqtisadi baxımdan Türkiyə Respublikası ilə əlaqələndirəcək. Bu dəhliz bütün regional ticarətə müsbət təsir edəcək, Çindən başlayıb Böyük Britaniyaya, Pekindən başlayıb Londona kimi onlarca dövlət arasında ticarət əlaqələrinin genişlənməsinə kömək edəcəkdir.

Hələ 2023-cü ildə "Zəngəzur dəhlizi strateji layihədir" deyən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, Zəngəzur dəhlizinin reallaşması tarixi zərurətdir: "Ermənistan istəsə də, istəməsə də, bu reallaşacaq. Yəni bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq bu qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun".

Azərbaycan Prezidenti İlham Əliyevin "Mən nəyi nə zaman edəcəyimi yaxşı bilirəm" dəyərli kəlamları bu gün öz təsdiqini tapır. Xatırladaq ki, ABŞ və Avropa da artıq Orta dəhlizin ikinci qolu olan Zəngəzur dəhlizinin açılmasında çox maraqlıdır.

# Azərbaycan Prezidentinə minnətdarlıq

## ABŞ Prezidenti təşəkkür məktubu ünvanlayıb

Nobel Sülh Mükafatına namizədliyini irəli sürmək üçün dövlətimizin başçısı İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın birgə məktubuna görə təşəkkürünü bildirən Donald Tramp qeyd edib: “Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq.

Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm”.

# Bakı - Tehran münasibətləri genişlənir

## Azərbaycan Prezidenti nümayəndə heyətini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev İranın xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə iki ölkə arasında uzun tarixi əlaqələr və son dövrlərdə aktivləşən qarşılıqlı səylər qeyd olunub. Prezident regional əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətinə toxunub, iqtisadi, nəqliyyat, energetika və digər sahələri əhatə edən yol xəritələrinin icrasından danışıb.

İran tərəfi əlaqələrin dərin köklərə malik olduğunu bildirərək əməkdaşlığın davam etdirilməsinin vacibliyinə diqqət çəkib.

# Berlinlə telefon diplomatiyası

## Sülh təşəbbüsünün müəllifi Azərbaycandır

Dekabrın 4-də Almaniyanın Kansleri Fridrix Merts Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək Ermənistanla sülh gündəliyi istiqamətində əldə olunan irəliləyişlərə görə təbriklərini çatdırıb. Kansler regionda sabitliyə dəstəyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın davamlı sülh təşəbbüslərinin müəllifi olduğunu və prosesin bundan sonra da davam etdiriləcəyini bildirib.

Tərəflər ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı səfər dəvətləri qəbul olunub.

# SƏRƏNCAMLAR

*Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanov 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev dekabrın 8-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev dekabrın 5-də peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev “Etibarlı Tərəfdaş Konsepsiyası”-nı təsdiq edib. Dövlət başçısı bununla bağlı dekabrın 5-də Sərəncam imzalayıb.*


Daxili işlər nazirlərinin Bəyanatı............2
Metronun mübariz keşikçiləri................2
Polisin daha bir missiyası…..................3
Kriminalistikada yeni üsul.....................4

# Respublika Xəbərləri

### Dövlət büdcəsi təsdiqləndi

Milli Məclis 2026-cı ilin dövlət büdcəsini təsdiqləyib. Beləliklə, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat, xərcləri 41,7 milyard manat məbləğində nəzərdə tutulur. Gələn il büdcənin gəlirləri 45 milyard manat, xərcləri 48,8 milyard manat, kəsiri isə 3,9 milyard manat proqnozlaşdırılır.

### İqtisadiyyatda artım gözlənilir

Baş nazir Əli Əsədov Milli Məclisin plenar iclasında deyib ki, gələn ildə qeyri-neft sektoru üzrə ÜDM-in 5 faizlik real artım tempi proqnozlaşdırılır. Neft-qaz hasilatı istisna olmaqla, ölkə iqtisadiyyatının bütün sahələri artımla proqnoz olunur. 2022-ci ildə ÜDM-in həcminin 52 faizini qeyri-neft sektoru təşkil edirdisə, bu nisbət 2029-cu ildə 80 faizi üstələyəcək.

### Daxili qoşunlarla bağlı vacib yenilik

Milli Məclis "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" yeni qanun layihəsini son oxunuşda qəbul edib. Yeni layihədə daxili qoşunların fəaliyyətinin əsas prinsipləri, istiqamətləri, onların tərkibi, vəzifə, səlahiyyət və hüquqları, maliyyə və maddi-texniki təminatı, fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi şərtləri əks olunub. Sənəd altı fəsil, otuz maddədən ibarətdir.

### Moped sürücülərinə vəsiqə tələbi

Moped idarə etmək üçün sürücülük vəsiqəsi tələbini özündə əks etdirən "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsi parlamentin plenar iclasında müzakirə olunub. İclasda bildirilib ki, bu dəyişiklik moped sürücülərinin müəyyən bilik və bacarıqlara malik olmalarını təmin edəcək və nəticə etibarı ilə yol hərəkəti təhlükəsizliyini artıracaq.

### Nazirlər Bakıda toplaşıb

Bakıda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının Bəyannaməsi imzalanıb. Sənəddə bu dövlətlər arasında əmək qanunvericiliyi, əmək hüquqlarının qorunması, əmək mühitində sağlamlıq və təhlükəsizlik kimi məsələlərdə əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

### Mənzil və avtomobillər verilib

Postmüharibə dövründə şəhid ailələri, müharibə əlilləri və veteranlara 6 900 mənzil təqdim edilib. Ümumilikdə isə indiyədək 16 minə yaxın mənzil bu kateqoriyadan olan şəxslərin istifadəsinə verilib. Eyni zamanda, dövr ərzində müharibə əlillərinə 567 avtomobil, ötən illər ərzində isə ümumilikdə 7,8 min avtomobil təqdim olunub.

### Naxçıvanın dəmir yolları yenilənir

Naxçıvan Muxtar Respublikasında dəmir yolları infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi üçün layihələndirmə işləri başa çatıb və artıq Ordubad rayonunda, Ermənistanla sərhəddə tikinti işlərinə start verilib. Tikinti işləri 188 km-lik dəmiryol xəttini əhatə edir. Dəmir yolunun illik yükötürmə qabiliyyəti 15 milyon ton təşkil edəcək.

### Yol qəzaları azalır

Son 5 ildə Azərbaycanda yol qəzalarının sayı 22 faizdən çox azalıb. Media Təhlil Mərkəzinin Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi rəqəmlər əsasında apardığı bu təhlilə əsasən, cari ilin yanvar-sentyabr aylarına dair göstəriciləri Cənubi Qafqaz ölkələri arasında müqayisə etdikdə Azərbaycanda 1 264 yol-nəqliyyat hadisəsi qeydə alındığı halda, Gürcüstanda bu göstərici 4 480, Ermənistanda isə 3 547 olub. Bu, son illərdə yol təhlükəsizliyi istiqamətində atılan addımlar və nəzarət mexanizmlərinin gücləndirilməsi nəticəsində ölkəmizdə yol-nəqliyyat hadisələrinin sayının davamlı şəkildə azaldılması ilə əsaslandırılır.

### Qarabağda rabitə bərpa olunur

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 8 şəhər, 18 kənd və qəsəbə rabitə xidmətləri ilə təmin olunub, 6843 abunəçi sabit internetdən istifadə edir. Onlardan 1239-u telefon, 1445-i isə İPTV xidmətlərindən yararlanır.

# Daxili işlər nazirlərinin Bəyanatı

## Üzv dövlətlər transsərhəd cinayətkarlığa qarşı birgə mübarizə, təhlükəsizliyin və hüquq qaydasının təmin olunması sahəsində əməkdaşlığa sadiqliklərini bəyan ediblər

**Müstəqil Dövlətlər Birliyinə üzv Dövlətlərin Daxili İşlər Nazirləri Şurasının 30 illiyi münasibətilə Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin daxili işlər nazirləri tərəfindən qəbul edilən Bəyanatda deyilir:**

Biz, Müstəqil Dövlətlər Birliyi ölkələrinin daxili işlər nazirləri, MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının yaradılmasının 30 illiyi ilə əlaqədar olaraq aşağıdakıları bəyan edirik.

Otuz il əvvəl, postsovet məkanında cinayətkarlığın sayının və ictimai təhlükəsinin görünməmiş şəkildə artması ilə müşayiət olunan dərin geosiyasi dəyişikliklər dövründə MDB Dövlət Başçıları Şurasının Daxili İşlər Nazirləri Şurasının yaradılması haqqında qərarı ortaq maraqlar, qarşılıqlı etimad və hörmətə əsaslanan üzv dövlətlər arasında cinayətkarlığa qarşı mübarizədə qarşılıqlı faydalı əməkdaşlığın təşkilati əsasının formalaşmasına, mədəni və hüquqi tarixi əlaqələrin təkmilləşdirilməsinə töhfə vermişdir.

Bu müddət ərzində Şura daxili işlər nazirlikləri arasında əməkdaşlığın təmin edilməsinə, cinayətkarlığa qarşı mübarizədə və hüquq-mühafizə sahəsində dövlətlərarası proqramların həyata keçirilməsində MDB-nin səlahiyyətli orqanlarının birgə səylərinin əlaqələndirilməsinə yönəlmiş mühüm işlər həyata keçirilmişdir.

Üç onillik ərzində hər bir nazirliyin səmərəli fəaliyyəti ilə təmin



olunan möhkəm praktiki təcrübə toplanmışdır.

Zamanın sınağından keçmiş, bərabərhüquqlu tərəfdaşlığımız təhlükəsizliyin, asayişin, bütün Birlik ölkələrinin vətəndaşlarının konstitusion hüquq və mənafelərinin müdafiəsi üçün hüquq-mühafizə orqanları əməkdaşlarının səylərinin daha da cəmləşdirilməsinin müstəsna əhəmiyyətini nümayiş etdirir.

Hazırkı çətin cinayətkarlıq şəraitində transsərhəd mütəşəkkil cinayətkarlıqla, ekstremizmlə, narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi ilə, qeyri-qanuni miqrasiya ilə, cinayət məqsədləri üçün informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə mübarizədə birgə səylərin cəmlənməsini vacib hesab edirik.

Biz, Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin daxili işlər nazirləri MDB-nin təsis sənədlərində təsbit olunmuş cinayətkarlığa qarşı mübarizədə əməkdaşlığın məqsəd və prinsiplərinə qətiyyətlə riayət etmək niyyətində olduğumuzu bəyan edirik.

Biz bu prinsiplərə sadiqliyimizi bir daha təsdiqləyirik və ölkələrimizdə sülh, dostluq, qanunçuluq və hüquq qaydası naminə Daxili İşlər Nazirləri Şurası çərçivəsində cinayətkarlıqla mübarizə sahəsində dövlətlərarası əməkdaşlığı ardıcıl olaraq inkişaf etdirməklə onun iş, forma və metodlarını təkmilləşdirəcəyik.

# Metronun mübariz keşikçiləri

## Paytaxtın təhlükəsizliyinin qorunması yer altından başlayır

**Böyük şəhərlərdə gündəlik həyatın ritmini müəyyənləşdirən əsas vasitələrdən biri metropolitendir. Dünyanın sayılıb-seçilən şəhərləri sırasında özünəməxsus yeri olan Bakı üçün də metro paytaxtda fasiləsiz hərəkəti təmin edən strateji infrastruktur kimi sərnişindaşımanın əsas yükünü öz üzərinə götürür.**

Gün ərzində yüz minlərlə paytaxt sakini bu "yeraltı dünyanın" içərisindən keçir, yolları, planları, qayğıları burada kəsişir.

Məhz buna görə də metronun təhlükəsizliyi Bakının təhlükəsizliyinin ayrılmaz bir hissəsi sayılır.

Bu böyük sistemin etibarlı keşikçisinə çevrilmiş Bakı Metropolitenində Polis İdarəsi öz fəaliyyəti ilə paytaxtımızın təhlükəsizliyinin qorunmasını, əslində, yerin altından başladır. Dəmir relslər üstündə dayanan yeraltı sistemin öz daxili nizam-intizamı, metrodan istifadə qaydaları var və hər bir sərnişinin bu bəlli qaydalara əməl etməsinə birbaşa polislər nəzarət edir. Deməli ki, polis əməkdaşları tərəfindən hər gün metroda təhlükəsizlik çəpərini keçmə, xuliqanlıq, avara və dilənçiliklə məşğul olma, siqaret çəkmə kimi metropolitendən istifadə qaydaları pozuntuları aşkar edilir, müxtəlif səbəblərdən axtarışda olanlar saxlanılır və barələrində lazımi hüquqi tədbirlər görülür.

Yüz minlərlə insanın eyni vaxtda hərəkət etdiyi bu qapalı məkanda baş verəcək ən kiçik hüquq pozuntusunun belə böyük risk potensialı daşıması həm metro polisinin ağır yükünə diqqət çəkir, həm də şəhərdəki sabitliyin qorunmasında yerini göstərir.

Təbii ki, böyük insan axınının təhlükəsizliyinə cavabdeh olan metro polisinin əməkdaşlarından yüksək peşəkarlıq gözlənilndir. Bunun üçün əməkdaşların peşə hazırlığı Bakı Metropolitenində Polis İdarəsi tərəfindən diqqət mərkəzində saxlanılır, fiziki və peşə hazırlıq dərslərinin vaxtlı-vaxtında keçirilməsi təmin olunur.

Bu il gənc əməkdaşların yeni "X-Ray" cihazlarının istifadəsi ilə bağlı təlimlərə də cəlb olunması, ilin sonunadək qalan əməkdaşların da təlimə göndərilməsi ilə prosesin tam başa çatdırılması nəzərdə tutulur ki, bu, təkmilləşmə istiqamətində atılan addımların bariz göstəricisidir. Hər gün psixoloji dözümlülük, güclü diqqət, situasiyaya ani reaksiya, qətiyyət və günün istənilən saatında ayıq-sayıq qalmaq kimi peşəkarlıq nümunəsi sergiləməklə metronu sərnişinlər üçün güvənli məkana çevirən polis əməkdaşlarının xidməti əsl fədakarlıq örnəyidir.

Bir anda izdiham, sərnişin axını ilə üzləşən polis əməkdaşının işi texniki avadanlıqlara nəzarətdən tutmuş, müşahidə kameralarının operativ təhlilinə və sərnişin davranışlarındakı şübhəli nüansların sezilməsinə qədər mürəkkəbdir .

Əlbəttə, ola bilsin, sərnişin metroya minib-enərkən heç bunların fərqində də olmur, onun təhlükəsizliyinin təmin edilməsi üçün saatlarla eyni diqqət və gərgin iş rejimi ilə xidmət edən polis əməkdaşının əzmini görmədən ötüb keçir.

Ancaq sərnişinin özünü rahat və güvəndə hiss etməsinin arxasında elə bu peşəkar xidmət dayanır. Sərnişində təhlükəsizliyə olan inamı məhz polisin fasiləsiz xidməti aşılayıb.

Bir ölkədə sabitliyin, təhlükəsizliyin qarantı da polisə ictimai inamın möhkəmliyidir. Metro polisi də təhlükədən bir addım öndə dayanmaqla sərnişin axınının maneəsiz və təhlükəsiz davam etməsinə zəmin yaratmaqla bu prinsipi qoruyur. Beləcə, yeraltının bu mübariz keşikçilərinin peşəkar xidməti həm gündəlik şəhər həyatına, həm də minlərlə insanın rahatlığına, təhlükəsizliyinə böyük töhfə verir.

*R.Mehtiyev*

# Erkən nikah cinayətdir

## Hüquqi maarifləndirmə davam etdirilir

Polis əməkdaşları tərəfindən əhali arasında hüquqi maarifləndirmənin gücləndirilməsi məqsədilə erkən nikahın fəsadları və məişət zorakılığına qarşı mübarizə mövzularında tədbirlər ardıcıl şəkildə aparılır.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları Şirvan, Hacıqabul, Cəlilabad, Göyçay, Göygöl, Şabran, İsmayıllı və Füzuli şəhər və rayonlarında ictimai yerlərdə vətəndaşlarla görüşlər keçirib, geniş izahat və məlumatlandırma işləri aparıblar.





Polis əməkdaşları vətəndaşlara erkən nikahların qanunvericiliklə qadağan olunduğunu və belə hallara yol verən şəxslərin məsuliyyət daşıdığını bildiriblər. Eyni zamanda, məişət zorakılığı ilə bağlı müdafiə mexanizmləri, müraciət qaydaları və zərərçəkmiş şəxslər üçün mövcud yardım imkanları barədə ətraflı məlumat verilib.

Tədbirlər zamanı maarifləndirici bukletlər paylanıb, bu cür görüşlərin cəmiyyətdə hüquqi məlumatlılığın artırılmasına və risklərin vaxtında qarşısının alınmasına mühüm töhfə verdiyi sakinlərin diqqətinə çatdırılıb.

# Polisin daha bir missiyası...

## Cəmiyyətin emosional yükü də polisin çiyinlərindədir

**Cəmiyyət böyük bir orqanizmdir. İnsanların qorxuları, narahatlıqları, qəzəbləri, sevincləri, panikası və ümidləri bu orqanizmin damarlarında axır. Bu duyğuların hamısı bir nöqtədə xidmətin üzərində toplanır.**

Polis yalnız cinayətlərlə, qayda pozuntuları ilə yox, cəmiyyətin emosional yükü ilə də mübarizə aparır. Buna görə psixologiyada polisin rolu çox zaman emosional filtr kimi izah edilir. Yəni cəmiyyətin içində yığılan emosiyalar polisin üzərindən keçərək neytrallaşır.

Psixoloji dildə emosional filtr hansısa bir şəxsin yığdığı mənfi hisslərin bir mexanizm tərəfindən udulması, emal olunması və cəmiyyətə zərər vermədən yönləndirilməsidir. Cəmiyyətdə bu filtr rolunu polis oynayır. Çünki insan qorxanda polis onları sakitləşdirir, insan aqressivləşəndə polis onları yönləndirir, insan xəta edəndə polis situasiyanı idarə edir, insan qaçanda polis qabağa gedir, insan qışqıranda polis susur və nəzarət edir. Sadalanan hər bir hal istisnasız olaraq polis davranışları ilə insanda olan emosional iqlimi, tarazlığı tənzimləyir.

Heç şübhəsiz ki, ictimai münasibətlər sistemində neqativ enerji, gərginlik ilk olaraq polisi tapır. Çünki polis küçədədir, mütləq ona rast gələcəkdir. Ona görə də polis ictimai tarazlığı qaydasında olmayan, yaxud ehtiyatsızlıqdan qayda pozan şəxsin narazılığının




ilk ünvanıdır, panikanın ilk hədəfidir, qorxunun ilk istinad nöqtəsidir. Bir hadisə baş verəndə insanlar narahat olur, ehtiyat edir, həyəcan keçirir və bu emosiyaların ilk ünvanı polisdə görünür. Hər bir polis əməkdaşı çox vaxt insanlar tərəfindən "emosional baqaj" obyektinə çevrilir. Bu, peşənin ən çətin psixoloji tərəfidir.

Polis neqativ emosiyanı öz içində saxlayan peşə olduğuna görə başqa sahələrdən fərqlənir, stress fərdi olaraq yaşanır. Polisdə isə stress davamlı, kəskin, emosional yüklü olur. Bu səbəbdən polisin psixologiyasında çox güclü eqo-nəzarət, özünütənzim, emosiyaları sıxışdırma mexanizmləri formalaşır. Bir polis əməkdaşı bəzən qəzəbin, qorxunun, panikanın, ağrının, ümidsizliyin çətiri olur. Bu, psixoloji baxımdan çox ağır yükdür.

Polis emosiyanı tənzimləyən sosial mexanizmdir. İnsanlarda emosional yük təsəvvür etdiyimizdən daha böyük olur. Səbəblər fərqlidir. Yol qəzalarını, ailə münaqişələrini, cinayətləri, itkinləri, təcili halları hər insan sakit, təmkinli qarşılamır. Bu proseslərin hər birində polisin davranışı panikanı azalda da bilər, artıra da.Ona görə polisin səsi, mimikası, hüzuru, qərar vermə tərzi, davranışı insanların psixoloji sabitliyinə birbaşa təsir edir. Yəni polisin psixoloji yükü yalnız şəxsi məsələ deyil, ictimai münasibətlərə təsir edən amildir.

Nəticə odur ki, polis insanlarda emosional sabitliyin görünməyən dayağıdır. Bir polis əməkdaşı yalnız təhlükəni yox, ona müraciət edən, yaxud qaydanı pozan insanın içindəki narahatlığı da idarə edir. Bu səbəbdən polis təkcə hüquq-mühafizə orqanı deyil, cəmiyyətin psixoloji tarazlıq mərkəzidir. Onlar cəmiyyətin emosional yükünü öz içindən keçirir, yuyur, yumşaldır, neytrallaşdırır. Buna görə polis həqiqi mənada "emosional filtr"dir.

*A.Vəliyev*

# Məsuliyyəti valideyn daşıyırsa…

## Övlada nəzarət azalanda kiber təhlükə artır, çünki risklər, təhlükələr var

**Paytaxtın Binəqədi rayonunda yeniyetmə qızın müəmmalı şəkildə dünyasını dəyişməsi valideynlərin övladlarını internetdəki təhlükələrdən qorumaq məsuliyyətini bir daha gündəmə gətirdi.**

Bu hadisə təkcə kədərli bir fakt deyil, eyni zamanda virtual mühitdən gələ biləcək real təhlükələrin nə qədər ağır nəticələr doğura biləcəyini göstərən acı bir dərsdir. Valideynlərin mediaya açıqlamasına görə, yeniyetmə gecə saatlarında hamı yatdıqdan sonra telefonunda qorxulu, mistik səhnələrlə dolu videolara baxırmış. Onlar bu faktlardan yalnız polis araşdırmalarından sonra xəbər tutublar: "Polisin araşdırmasından sonra məlum oldu ki, cin, şeytan, qəbiristanlıq kimi dəhşətli görüntülərə davamlı baxıb. Hətta dəftərlərinin birində cinə bənzər qorxulu bir rəsm də çəkib." Hadisənin dəqiq səbəbini, şübhəsiz ki, ekspertiza müəyyən edəcək. Lakin polis əməkdaşlarının məktəblərdə keçirdikləri maarifləndirici tədbirlərdə də davamlı xəbərdarlıq etdikləri kimi, yeniyetmələrin psixikasına təsir göstərən qorxu videoları, mistik məzmunlu paylaşımlar və qapalı internet qrupları ciddi təhlükə mənbəyidir. Üstəlik, sosial şəbəkələrdə uşaqları psixoloji gərginliyə, hətta özünə zərər verməyə yönəldən gizli səhifələrin sayı getdikcə artır. Baş verən hadisələr bir daha sübut edir ki, yeniyetmələrin internet mühitində üzləşə biləcəyi psixoloji təsirlər, zərərli kontent və qapalı qruplar real təhlükəyə çevrilib. Məhz bu səbəbdən polis əməkdaşları məktəblərlə sıx əməkdaşlıq çərçivəsində həm şagirdlər, həm valideynlər, həm də pedaqoji heyətlə mütəmadi görüşlər keçirir, onları mövcud risklər barədə məlumatlandırırlar. Tədbirlər zamanı uşaqlara internetdən təhlükəsiz istifadə qaydaları, şəxsi məlumatların qorunması, sosial şəbəkələrdə zərərli qrupların fəsadları əyani şəkildə izah edilir, maarifləndirici videoçarxlar nümayiş olunur.

# Ailə münaqişəsində nə etməli?

## Polisin davranışı zorakılığın qarşısının alınmasında həlledicidir

Ailə-məişət münaqişələri polisin fəaliyyətində ən həssas kateqoriyalardan biridir. Bu cür hadisələrdə polis yalnız qanunu tətbiq edən qurum kimi deyil, həm də insan həyatını qoruyan, psixoloji gərginliyi neytrallaşdıran və riskləri idarə edən birinci əlaqə nöqtəsi kimi çıxış edir. Ona görə də ailədaxili münaqişələrdə düzgün davranış modeli həm təhlükəsizliyin təminində, həm də zorakılığın qarşısının alınmasında həlledici rol oynayır.

### Tərəflər ayrıca dinlənilməlidir

Ailə münaqişələri adətən yüksək emosiyalar fonunda baş verir. Polis əməkdaşı gərginliyin artmaması üçün tərəfləri ayrı-ayrılıqda dinləməli, hər bir şəxsin mövqeyini qərəzsiz şəkildə qeydə almalıdır. Uşaqlar ailə münaqişələrinin ən çox zərər görən tərəfidir. Ona görə polis əməkdaşı münaqişə yerində gərginliyin qarşısını almalı və onları təhlükədən uzaq saxlamağa çalışmalıdırlar.

### Nə zaman müdaxilə etməli?

Münaqişənin arxasında zorakılıq, təhdid və ya psixoloji təzyiq ehtimalı varsa, polis bunu dərhal qiymətləndirməlidir. Məişət zorakılığı ehtimalı təsdiqini taparsa, proses artıq adi münaqişə kimi deyil, xüsusi müdaxilə tələb edən hüquqi hadisə kimi qiymətləndirilir.

Hadisənin hüquqi təsnifatı olduqca önəmlidir. Münaqişə adətən adi ailədaxili anlaşılmazlıq, psixoloji zorakılıq, fiziki zorakılıq, təhdid və hədə-qorxu və ya cinayət tərkibli xəsarət yetirmə zamanı baş verir.

Əgər hadisə Cinayət Məcəlləsinin tərkibini yaradırsa, iş dərhal istintaq orqanına təqdim edilir.

### Maarifləndir ki, hadisəni qabaqlaya biləsən

Ailə münaqişələrində çox vaxt zərərçəkən tərəf hüquqlarını tam bilmir. Polis əməkdaşı ona müdafiə orderi almaq imkanını,sığınacaqlara müraciət yollarını, sosial və psixoloji xidmətləri və tibbi müayinənin əhəmiyyətini aydın və sadə dillə izah etməlidir. Bu mərhələ həm maarifləndirici, həm də qabaqlayıcı əhəmiyyət daşıyır.

Əgər fiziki xəsarət varsa, polis dərhal təcili tibbi yardım çağırmalı, xəsarətin sənədləşdirilməsini təmin etməli və zərurət yarandıqda psixoloq və sosial işçi ilə əlaqələndirməlidir.

### Neytrallığını qoru, peşəkar davran

Ailə münaqişələrində tərəflər çox vaxt polislə emosional danışmağa, onları öz tərəflərinə çəkməyə çalışırlar. Bu halda polis emosiyaya qapılmamalı, tərəf tutmamalı, kəskin, qıcıqlandırıcı ifadələrdən çəkinməli, vəziyyəti sakitləşdirməyə yönəlmiş davranış nümayiş etdirməlidir. Polis əməkdaşının neytral mövqeyi həm təhlükəsizliyin təminində, həm də sonrakı hüquqi proseslərin obyektivliyində mühüm rol oynayır.

### Nəhayət, məsuliyyət anı

Zorakılıq faktı təsdiqləndikdə polis cinayəti törədən şəxs barəsində qanunvericiliyin tələb etdiyi tədbirlərə başlayır. Bu tədbirlərə inzibati protokollar, təcridetmə, barəsində cinayət işi açılması və zərərçəkənin təhlükəsizliyinin təmin olunması daxildir.

*R.Mehtiyev*

# Görüşlər davam edir

## Daxili işlər orqanlarında ardıcıl ideoloji iş aparılır

Şəxsi heyətin ideoloji və mənəvi-psixoloji hazırlığının artırılması, dövlətçilik və milli-mənə-



vi dəyərlərə hörmət ruhunun gücləndirilməsi məqsədilə Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları tərəfindən Saatlı, Sabirabad, Şirvan və Hacıqabul şəhərlərində növbəti görüşlər keçirilib.

Tədbirlərdə həmin rayonların polis və mühafizə orqanlarının, paytaxtın Nəsimi Rayon Polis İdarəsinin, şöbə və bölmələrinin şəxsi heyəti, eləcə də Sabirabad "ASAN xidmət" mərkəzinə təhkim olunmuş əməkdaşlar iştirak ediblər.

Görüşlərdə ölkədə həyata keçirilən dinamik inkişaf, şəxsi heyətin xidmətdə və xidmətdənkənar vaxtlarda etik davranış və qanunçuluğa riayət etməsinin vacibliyi, sosial şəbəkələrdə mənfi rəyin formalaşmasına yol verilməməsi və digər neqativ hallara qarşı mübarizə mövzularında ətraflı məlumat verilib.

Həmçinin sosial media platformalarının mənfi təsir imkanları, xidməti konfidensiallığın qorunması, neqativ informasiya təsirlərinin azaldılması və pis vərdişlərlə mübarizə ilə bağlı əməkdaşlarla qarşılıqlı müzakirələr aparılıb, onların sualları cavablandırılıb.

# Kibertəhlükə: çağırış

## Bank kartı məlumatlarını paylaşmayın

Vətəndaşların bank kartlarına müxtəlif kiber üsullarla müdaxilə halları var. Bank kartının üzərində olan məxfi məlumatların naməlum şəxslərə verilməsi maliyyə itkisinə və kredit öhdəliklərinin yaranmasına səbəb olur.

CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, vətəndaşa məxsus digər sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, eləcə də kartın PİN kodu naməlum şəxslərə ötürüldüyü halda hesabdakı pul vəsaiti, yaxud hesabda pul olmadığı təqdirdə kredit vəsaiti oğurlana bilər.

Buna görə şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə bağlı təkliflərə qarşı diqqətli olmaq tövsiyə edilir. Qəti şəkildə şəxsi bank məlumatlarınızı naməlum şəxslərə verməyin, təhlükə realdır.

# Şübhəli şəxs müəyyənləşib

## Keçmiş məhkum keçmişindən əl çəkməyib

Nəsimi rayonu ərazisində gecə saatlarında naməlum şəxs yaşayış binasının həyətindəki "Mercedes" markalı avtomobildən 6500 manat pul oğurlayıb. Avtomobil sahibi bu barədə polisə müraciət edib.

Nəsimi RPİ 21-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 42 yaşlı F.Həsənov müəyyən olunaraq saxlanılıb.

Rayon ərazisində digər bir nəfərin 1200 dollar pulunu dələduzluq yolu ilə ələ keçirməkdə şübhəli bilinən 52 yaşlı R.Məmmədov da polis əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırmalar aparılır.

# Müştərilər oğru çıxdı

## Cinayətdə şübhəli bilinən üç nəfər saxlanılıb

Abşeron rayonu ərazisində bir nəfər alıcı kimi mağazaya daxil olaraq orada olan qızıl-zinət əşyalarını yoxlamaq adı ilə üzərinə taxıb və daha sonra gizlicə mağazadan uzaqlaşıb. Bu barədə polisə müraciət edən zərərçəkənə 3480 manat maddi ziyan dəydiyi məlum olub.

Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 28 yaşlı N.Dadaşova müəyyən olunaraq saxlanılıb.

Rayon ərazisindəki digər bir mağazada da analoji hadisə baş verib. Naməlum şəxs mağazadakı smart saatı oğurlayıb və əvvəlcədən əlbir olduğu sürücü dostunun idarə etdiyi avtomobillə hadisə yerindən uzaqlaşıblar. Əməli törətməkdə şübhəli bilinən 36 yaşlı V.Rzayev və 33 yaşlı S.Paşazadə polis əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırmalar aparılır.

# Kriminalistikada yeni üsul

## Hər iz bir kimlikdir, şəxsiyyəti ifadə edir

Dodaq izləri barmaq izləri qədər tanınmasa da, unikal xüsusiyyətlərə malikdir və bu xüsusiyyətləri ilə şəxsiyyətin identifikasiyasında mühüm rol oynaya bilər. Dodaq izləri insanın genetik quruluşuna görə dəyişdiyi üçün hər bir fərdin izi bir-birindən fərqlidir. Bu üsul xüsusilə cinayət hadisələrində - şüşə, stəkan, kağız və ya digər səthlərdə qalan izlər olduqda istifadə olunur.

### Xeyloskopiya nədir?

Dodaq izlərinin öyrənilməsi elmi xeyloskopiya adlanır. Bu metod 20-ci əsrin ortalarından etibarən bəzi kriminal laboratoriyalarda tətbiq olunmağa başlanıb. Alimlər müəyyən ediblər ki, dodaqların üst və alt hissələrindəki xətlərin quruluşu sabitdir və insan ömrü boyu dəyişmir. Bu da onları etibarlı identifikasiya vasitəsinə çevirir.

### İzlərin təsnifatı

Xeyloskopiya elmi dodaq izlərini müəyyən siniflərə ayırır: düz xətlər, qarmaqarışıq, budaqlanan, aralı və s. Hər bir insanın dodağında bu izlərin yerləşməsi və forması fərqlidir. Bu təsnifat kriminalistlərə müqayisə etməklə şübhəlini müəyyənləşdirmək imkanı verir.



### Cinayət yerində izlərin tapılması

Məsələn, qətl və ya oğurluq hadisəsi zamanı şüşə stəkan üzərindəki dodaq izi, hadisə yerində siqaretin uc hissəsində qalan iz və ya kağız üzərindəki təmas izləri xüsusi işıqlandırma və kimyəvi maddələrlə aşkar edilə bilər. Bu izlər həm də cinayətkarın cinsini, bəzən isə yaşını və bəzi vərdişlərini də göstərməyə yardım edir.

### Real hadisədən nümunə

2009-cu ildə Braziliyada baş vermiş qətl hadisəsində dodaq izləri mühüm sübut rolunu oynayıb. Cinayət yerində qalmış şərab stəkanı üzərindəki iz xüsusi laborator analizə göndərilib və bu, şübhəlinin dodaq izləri ilə üst-üstə düşərək onun təqsirkar olduğunu sübut edib. Bu, dodaq izləri ilə açılmış ilk real cinayət işlərindən biri kimi tarixə düşüb.

### Tanıma üsulunun üstünlükləri və çətinlikləri

Dodaq izlərinin üstünlüyü ondadır ki, bəzi hallarda barmaq izi tapılmayan yerlərdə bu izlər mövcud ola bilər. Lakin bu üsulun çətinlikləri də mövcuddur. İzin keyfiyyəti, səthin quruluşu və kənar təsirlər nəticənin dəqiqliyinə təsir göstərə bilər. Bu səbəbdən, bu üsul adətən tək sübut kimi deyil, əlavə sübut vasitəsi kimi istifadə olunur.

### Cinayətlərin açılmasında müasir texnologiyaların rolu

Müasir texnologiyalar – yüksək dəqiqlikli skanerlər, süni intellekt və biometrik analiz vasitələri xeyloskopiyanın effektivliyini artırır. Kriminalistika sahəsində bu üsula maraq artır və gələcəkdə dodaq izi analizləri barmaq izi qədər geniş yayılmış üsullardan biri ola bilər.

Dodaq izi ilə şəxsiyyətin müəyyən olunması çoxlarının bilmədiyi, lakin getdikcə əhəmiyyəti artan kriminal üsuldur.

Bu sahədə aparılan araşdırmalar və inkişaf edən texnologiyalar sayəsində yaxın gələcəkdə daha çox cinayətin üstü bu metodla açıla bilər.

*A.Tahirova*

# “Polis” haradan gəlir?

## Söz kimi başlayıb, sistemə çevrilən anlayış

Bu gün “polis” dedikdə ağlımıza ictimai asayişi qoruyan, təhlükəsizliyi təmin edən dövlət orqanı gəlir. Lakin bu sözün kökü minilliklər əvvələ, qədim Yunanıstana gedib çıxır.




“Polis” sözü yunanca “πόλις (polis)” sözündən yaranıb və ilkin mənası “şəhər”, “şəhər-dövlət” deməkdir. Qədim dövrlərdə “polis” təkcə yaşayış məntəqəsi deyil, eyni zamanda qanun, idarəetmə və ictimai nizamın simvolu idi. Bu anlayış zamanla “politeia” formasında dövlət idarəçiliyi və ictimai qayda mənasını qazandı.

Sonrakı mərhələlərdə söz latın dilinə “politia”, ordan isə fransız dilinə “police” formasında keçərək bugünkü məna - ictimai təhlükəsizliyi qoruyan qurum anlayışını aldı. Azərbaycan dilinə də məhz bu xətt üzrə daxil oldu.

Beləliklə, “polis” sözü öz kökündə sadəcə bir qurumu yox, şəhəri, cəmiyyəti və ictimai tarazlığı qorumaq missiyasını daşıyır. Bu mənada polis təkcə hüquqi institut deyil, həm də cəmiyyətin təhlükəsizlik dayağıdır.

# Stresi evə aparma

## Bu, polis əməkdaşı üçün mühümdür

Hər birimiz gün ərzində çoxsaylı emosional və fiziki gərginlik keçiririk. Xidmətin özündə təhlükə riski, konfliktli insanlar, narahat vəziyyətlər və gözlənilməz



hallar kifayət qədərdir. Axşam evə qayıdarkən həmin hadisələrin yaratdığı psixoloji yük insanın içində qala bilir və bəzən bu yük ailə münasibətlərinə də sirayət edir. Məhz buna görə “stresi evə aparmamaq” polis əməkdaşının həm peşə, həm də şəxsi həyatında mühüm rol oynayır.

İşdən evə gələn polis əməkdaşı, çox zaman peşədəki sərt ünsiyyət standartlarını, emosional özünüidarə vərdişlərini ev mühitinə də daşıya bilir. Halbuki, ev anlayış və yumşaq münasibət tələb edir. Xidmətdə sərt və prinsipial olmaq vacibdir, evdə isə ailə bağlarını hər gün yenidən möhkəmləndirmək lazımdır. Burada psixoloqların “keçid mərhələsi” dedikləri xüsusi proses kömək edir. Evə gəlməzdən əvvəl qısa nəfəs məşqi, bir neçə dəqiqə sakit musiqi, telefon və ya xəbərlərdən uzaqlaşmaq emosiyanı soyudur və beynə “artıq evdəsən” mesajı verir.

Stresi ailə üzvləri ilə bölüşmək, əlbəttə ki, təbiidir. Lakin hər məsələni detallı şəkildə danışmaq bəzən daha gərgin atmosfer yaradır. Bunun əvəzinə 10-15 dəqiqəlik gəzinti, idman və ya sadəcə tək qalmaq ehtiyacı bədənin və beynin rahatlamasına kömək edir. Gərgin günün ardınca özünüzə belə bir imkan vermək, təkcə sizin yox, ailənizin də rahatlığını təmin edir. Bu həmçinin aqressiv emosiyaların evdə sərbəst şəkildə təzahür etməsinin qarşısını alır.

Ailə üzvlərinin də polisin keçdiyi çətinliyi anlaması vacibdir. Gərgin iş gününün sonunda “bir az sakitləşmək istəyirəm” kimi sadə bir cümlə belə ailə münasibətlərini yumşaldır. Bu cür münasibət həm qarşılıqlı anlaşmanı gücləndirir, həm də ailəyə öz rolunun dəyərini hiss etdirir. Unutmaq olmaz ki, ailə dəstək mənbəyidir, amma həmin dəstəyin olması onun da doğru məlumatlanmasından keçir.

Polis xidməti bizim peşəmizdir, ailə isə həyatımız. Xidmətdə yaşanan emosiyaları ev mühitinə gətirməmək polis əməkdaşının şəxsi psixoloji dayanıqlığını artırır, ailə bağlarını qoruyur və tükənmişlik riskini azaldır. Stresi idarə edə bilən polis həm xidmətdə daha effektivdir, həm də evdə daha sakit və anlayışlı.

# İnsan danışanda görünür

## Danışmaq düşünməyi və düşündürməyi formalaşdırır

Danışmaq təkcə kommunikasiya vasitəsi deyil, insanın düşünmə, anlaşma, münasibət qurma və özünü reallaşdırma prosesinin əsas mexanizmidir. Bir insanın danışmağı bacarması həm şəxsi inkişaf, həm sosial münasibətlər, həm də psixoloji sağlamlıq üçün həlledici əhəmiyyət daşıyır. Fəlsəfədə belə bir fikir var ki, insan düşündüyü kimi danışmaz, danışdığı kimi düşünməyə başlayar. Yəni insan fikirlərini dilə gətirdikcə, düşüncələri aydınlaşır, məntiqi formalaşır, anlaşılmayan hisslər aydın şəkil alır. Danışa bilməyən insan əslində öz beyninin içində “qaranlıq otaqda” gəzir.

Danışmaq duyğuları tənzimləyir. Psixologiyada buna verbalizasiya deyilir. İnsan danışanda gərginlik azalır, stress boşalır, qorxu səsləndikcə gücünü itirir, məsələlər daha idarəolunan görünür. Daxildə saxlanan duyğular isə aqressiyaya, həlledilməmiş travmaya və ictimai münasibətlərə zərər vurur, problemlərə səbəb olur.

### Danışmaq münasibətləri qoruyur

Bir çox münasibətlər yaxşı kommunikasiya yoxluğundan dağılır. Çünki söylənməyən sözlər yığılır, yanlış anlaşılma çoxalır, inciklik böyüyür, tərəflər bir-birini “başqa cür” görməyə başlayır. Danışmaq münasibəti sağlam saxlamağın faydalı, ən təsirli yoludur. Danışmaq insanın sosial gücüdür. Cəmiyyətdə insanlar danışığına görə qiymətləndirilir. Məsələn, fikrini necə ifadə edir, özünəinam səsi varmı,şəxsin diksiyası, fikrin ardıcıllığı onun portretini ifadə edir. Danışa bilən insan harada olursa-olsun daha çox qəbul edilir, daha tez rəğbət qazanır, yüksəlir, sosial kapitalı artır. Danışıq, nitq insan reputasiyasının valyutasıdır.

### Danışmayan insan özünü yarada bilmir

Xüsusilə uşaqlarda, qadınlarda və həssas qruplarda danışıq bacarığı onları zorakılığa, manipulyasiyaya, psixoloji təzyiqə qarşı daha müqavimətli edir. Danışa bilməyən, öz sözünü ifadə edə bilməyən insan asanlıqla susdurulan insana çevrilir. Ona görə ki, dil insanın kimliyinin ən dərin qatıdır. Danışdığın dil, istifadə etdiyin sözlər, fasilələr, vurğular sənin kim olduğunu formalaşdırır. Danışmayan insan özünü yarada bilmir. Ona görə ki, məhz söz insanın aynasıdır, danışdığı qədər görünür.

Danışmaq bacarığı qərarverməni gücləndirir. Bu, hüquq-mühafizə, idarəetmə, siyasət və biznesdə xüsusilə vacibdir. İnsan danışmağı bacarmalıdır, çünki danışmaq həm düşüncəni, həm duyğunu, həm münasibətləri, həm də həyatın idarəsini formalaşdırır. Danışa bilən insan özünü ifadə edir. Danışa bilməyən insan özünü itirir.

# Poliqraf haqqında bilinməyənlər

## Həqiqəti üzə çıxaran cihaz

Cinayətin izinə düşmək üçün bəzən sözlər kifayət etmir. Elə məqamlar var ki, insan danışmasa belə bədəni danışır. Bu zaman köməyə gələn cihazlardan biri də poliqraf, yəni “yalan detektoru”dur.

### Poliqraf nədir?

Poliqraf insanın bədənindəki fizioloji dəyişiklikləri ölçərək onun doğru danışıb-danışmadığını müəyyənləşdirməyə çalışan cihazdır. Cihazın, əsasən, ölçdüyü göstəricilər nəfəs alma sürəti, nəbz, təzyiq və dəridəki elektrik keçiriciliyidir. Sorğu zamanı verilən sualları cavablandıran şəxsin orqanizmi bu göstəricilər üzrə reaksiya verdiyinə görə ekspertlər yalanı ayırd edə bilirlər.

### Tarixi kökləri

Poliqraf ilk dəfə 1921-ci ildə ABŞ-da polis məmuru və psixoloq olan Con Auqust Larson tərəfindən istifadə olunub. Daha sonra bu cihaz üzərində yeniliklər aparılıb və hüquq-mühafizə orqanlarında tətbiqi genişlənib.

### Hansı ölkələrdə istifadə olunur?

Bu gün poliqraf cihazı ABŞ, Böyük Britaniya, Rusiya, İsrail, Yaponiya, Polşa, Braziliya, Hindistan kimi ölkələrdə geniş istifadə olunur. Xüsusilə ABŞ-da Federal Təhqiqat Bürosu, Mərkəzi Kəşfiyyat İdarəsi və digər qurumlar əməkdaş qəbu-



lunda da bu üsula müraciət edirlər.

### Poliqraf cinayəti necə açdı?

ABŞ-da 2002-ci ildə baş vermiş qətl hadisəsində əsas şübhəli polisin sorğularına cavab verərkən daim özünü sakit aparırdı. Lakin poliqraf testində onun fizioloji reaksiyaları şübhəli nəticələr verdi. Bu, istintaqa yeni istiqamət verdi və nəticədə cinayətin onun tərəfindən törədildiyi sübuta yetirildi.

Onu da əlavə edək ki, poliqraf heç zaman istintaqın yeganə sübutu sayılmır, amma onu tamamlayan önəmli alətlərdən biridir.

Bu üsul, xüsusilə, psixoloji təzyiq altında olan şəxslərin səmimiliyini ölçməkdə və istintaqın doğru istiqamət götürməsində mühüm rol oynayır.

*A.Tahirova*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

MƏSUL ŞƏXS: ELŞAD HACIYEV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik